15 avqust 2023-cü il, çərşənbə axşamı

Xalq qəzeti

# Monqolustanda Türk tarixi abidələri tapılıb



**Monqolustanda səfərdə olan Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev Arxanqay vadisində aparılan "Nomqon 2023" elmi arxeoloji ekspedisiyasının nəticələri ilə tanış olub.**

Bu barədə Beynəlxalq Türk Akademiyasından məlumat verilib.

Bildirilib ki, ötən il Nomqon düzündə Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının birgə apardığı elmi arxeoloji ekspedisiya nəticəsində Kutluk İlteriş Kağana həsr olunmuş kompleks aşkar edilib. Abidə kompleksi bütün xüsusiyyətlərinə görə Bilge Kağan və Kültegin abidələrinə bənzəyir.

Bundan əvvəl Beynəlxalq Türk Akademiyası Monqolustanda Şiveet-ulan abidəsində arxeoloji qazıntılar aparıb, 2016-cı ildə vadiyə xüsusi ekspedisiya təşkil edib. Kutluk xanları dövründə tikilmiş mərasim kompleksində abidə daşı və müxtəlif əşyalar aşkarlanaraq onların tarixləri müəyyən edilib. Mərasim kompleksi 2018-ci ildə mühafizə edilmək üçün hasara alınıb. Bu işlərin davamı olaraq 2019-cu ildə Nomqon qazıntılarına başlanılıb. Bu il aparılan qazıntılar nəticəsində Türk xaqanlığı dövrünə aid mühüm tapıntılar aşkar edilib.

Şahin Mustafayev Nomqon kompleksindən 80 kilometr aralıda yerləşən Ötüken düzündəki Kültegin və Bilgə Kağan kompleksləri ilə də tanış olub, vaxtilə qədim Karakorim şəhərinin olduğu yerə baş çəkib.

***"Xalq qəzeti"***